**“Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə**

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

“Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” Azərbaycan Respublikası Qanununun 1997-ci il 1 yanvar tarixində qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” Azərbaycan Respublikasının Qanununun qüvvəyə minməsinə qədər:

qüvvədə olan müvafiq qanunvericilik aktlarının “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu haqda Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

öz səlahiyyətləri daxilində “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” Azərbaycan Respublikasının Qanununun tələblərindən irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

2.1. Azərbaycan Respublikası vətəndaşlarının, 1992-ci il yanvarın 1-dək Azərbaycan Respublikasında daimi yaşamaq üçün icazə almış vətəndaşlığı olmayan şəxslərin və onların “Azərbaycan Respublikasının vətəndaşlığı haqqında” Azərbaycan Respublikasının Qanunu qüvvəyə minənədək doğulmuş uşaqlarının ~~və Azərbaycan Respublikasında 30 gündən artıq yaşamaq istəyən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin~~ yaşayış yeri üzrə qeydiyyata alınması Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən həyata keçirilir;**i**[1]

2.2. “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinin birinci hissəsinin 4-cü bəndində, 7-ci maddəsində ~~*, 11-ci maddəsinin ikinci (hər iki halda), üçüncü hissələrində, altıncı hissəsinin birinci cümləsində və səkkizinci hissəsində*~~ nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti həyata keçirir;**ii**[2]

2.3. həmin Qanunun 8-ci maddəsində, 9-cu maddəsinin birinci hissəsinin birinci abzasında və 1-ci bəndində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanları”nın səlahiyyətlərini öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti həyata keçirirlər;

2.4. həmin Qanunun 9-cu maddəsinin birinci hissəsinin 2-ci bəndində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti həyata keçirirlər;

2.5. həmin Qanunun 9-cu maddəsinin ikinci hissəsində və 10-cu maddəsinin beşinci hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini rayon, şəhər, şəhərlərdə rayon icra hakimiyyəti orqanları yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar həyata keçirirlər;iii[3]

3. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinə tapşırılsın ki, öz səlahiyyətləri daxilində "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərindən irəli gələn digər məsələləri həmin Qanunun qüvvəyə minməsinə qədər həll etsin.

Azərbaycan Respublikasının Prezidenti Heydər ƏLİYEV

Bakı şəhəri, 14 iyun 1996-cı il

№ 493

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 20 iyul 2009-cu il tarixli **129** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 22 iyul 2009-cu il, № 158; "Azərbaycan" qəzeti, 28 iyul 2009-cu il, № 163; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 7, maddə 532)**
2. 13 sentyabr 2013-cü il tarixli **975** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 14 sentyabr 2013-cü il, № 202; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 09, maddə 1041)**
3. 21 noyabr 2014-cü il tarixli **366** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı**("Respublika" qəzeti, 22 noyabr 2014-cü il, № 255; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 11, maddə 1406)**
4. 21 sentyabr 2015-ci il tarixli **624** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı**("Azərbaycan" qəzeti, 22 sentyabr 2015-ci il, № 207)**

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

**i[1]**13 sentyabr 2013-cü il tarixli **975** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 14 sentyabr 2013-cü il, № 202; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 09, maddə 1041)**ilə 2.1-ci bənddən "**və Azərbaycan Respublikasında 30 gündən artıq yaşamaq istəyən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin**" sözləri çıxarılmışdır.

**ii[2]**13 sentyabr 2013-cü il tarixli **975** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 14 sentyabr 2013-cü il, № 202; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 09, maddə 1041)**ilə 2.2-ci bəndə "**7-ci maddəsində**" sözlərindən sonra "**, 11-ci maddəsinin ikinci, üçüncü hissələrində və altıncı hissəsinin birinci cümləsində**" sözləri əlavə edilmişdir.

21 noyabr 2014-cü il tarixli **366** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı**("Respublika" qəzeti, 22 noyabr 2014-cü il, № 255; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 11, maddə 1406)** ilə 2.2-ci bəndində "**ikinci**" sözündən sonra "**(hər iki halda)**" sözləri əlavə edilmişdir, "**və altıncı hissəsinin birinci cümləsində**" sözləri "**, altıncı hissəsinin birinci cümləsində və səkkizinci hissəsində**" sözləri ilə əvəz edilmişdir.

21 sentyabr 2015-ci il tarixli **624** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı**("Azərbaycan" qəzeti, 22 sentyabr 2015-ci il, № 207)** ilə 2.2-ci bəndindən "**, 11-ci maddəsinin ikinci (hər iki halda), üçüncü hissələrində, altıncı hissəsinin birinci cümləsində və səkkizinci hissəsində**" sözləri çıxarılmışdır.

**iii[3]**20 iyul 2009-cu il tarixli **129** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 22 iyul 2009-cu il, № 158; "Azərbaycan" qəzeti, 28 iyul 2009-cu il, № 163; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 7, maddə 532)** ilə 2-ci bəndi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~2. Müəyyən edilsin ki, Azərbaycan Respublikası vətəndaşlarının, əcnəbilərin və vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin yaşayış yeri üzrə qeydiyyata alınması Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin müvafiq qurumları tərəfindən həyata keçirilir.~~